"Dzeqvi körpüsü": Gürcüstanda, Dzeqvi kəndi ərazisində, Kür çayı üstündə salınmış körpü.





**Cümə, 10 oktyabr 1919-cu il, nömrə 292**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 15 məhərrəmül-haram sənə 1338. 10 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Səlimə xanım və uşaqları Mirzəağa və Əliağa kamali-yəs və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dost-aşnalarına əziz və sevgili olan əvvəlincinin əri və ikincilərin atası **Məşhədi Qasımovun** zalım əlində fəcianə [faciəvi] bir surətdə qətl edildiyini xəbər verirlər. Mərhumun təşyiyi-cənazəsi [cənazəsinin yola salınması] həmin oktyabr ayının 10-da, səhər saat 10-da, Aziatski küçədə, 54 nömrəli evindən Qasımbəy məscidinə aparılacaqdır.

*11439*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Güştasb və Rüxtər Qasımovlar kamali-yəs və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dost-aşnalarına əziz və sevgili qardaşı **Məşhədi Qasımovun** zalım əlində fəcianə [faciəvi] bir surətdə qətl edildiyini xəbər verir. Mərhumun təşyiyi-cənazəsi həmin oktyabr ayının 10-da, səhər saat 10-da, özünün Aziatski küçədə, 54 nömrəli evindən Qasımbəy məscidinə aparılacaqdır.

*11440*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Abbasəli Əliyev kamali-yəs və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına əziz və sevgili bacıoğlusu **Məşhədi Qasımovun** zalım əlində fəcianə bir surətdə qətl edildiyini xəbər verir. Mərhumun təşyiyi-cənazəsi həmin oktyabr ayının 10-da, səhər saat 10-da, Aziatski küçədə, 54 nömrəli evindən Qasımbəy məscidinə aparılacaqdır.

*11441*

### SİRK "MODERN"

Cümə günü oktyabrın 10-nda 1919-cu ildə təzə gələn artist və artistkaların qastrolu olacaqdır. Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir. Pəhləvan İnkoynonun tələbinə görə 3 min bəxşiş.

1-nci: Qara Maska – Naməlum.

2-nci: İran güləşi Gənc Əli – Oleynikov.

3-ncü: Boqatıryov – Əhmədov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mü-

barizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*11435*

**ELAN**

Azərbaycan Dövlət Teatrosu müdiri Qulamrza Şərifov elan edir ki, Maarif nazirinin binagüzarlığına [sərəncamına] görə, bu gündən etibarən türk drama, opera, operet tamaşaları dövləti olacaqdır. Müahidə əqd edib [müqavilə imzalayıb], dövləti xidmət şəraiti ilə aşina olmaqdan ötrü artist və artistkalar şənbə günü oktyabrın 11-də səhər saat 11-də Dövlət Teatrosuna təşrif gətirsinlər.

*Müdir: Qulamrza Şərifov*

*T-279*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Elannamə**

Təşrini-əvvəl (oktyabr) ayının 20-sindən etibarən Azərbaycanın bütün posta idarələrində atidə [aşağıda] dərc olunan Azərbaycan milli posta pulları (markaları) işlənəcəkdir.

10 qəpiklik əsgər surətli fonu göy rəng
20 » » » » qırmızı
40 » biçinçi » » yaşıl
60 » » » » qırmızı
1 manatlıq » » » göy
2 » qala » » qırmızı
5 » » » » göy
10 » » » » yaşıl
25 » Suraxanı » » göy
50 » » » » qırmızı

Həmin vaxtdan etibarən Azərbaycanda əski Rusiya posta markaları istemaldan [istifadədən] götürüləcəkdir. Rusiya nümunələrində bulunan qapalı məktub üçün zərflər və açıq məktub üçün posta kartları əvvəlki fiyatlarına satılıb, postaya verildiyi zaman isə fiyatı nəzərə alınmayıb, Azərbaycan markaları yapışdırılması icab edir [lazım gəlir].

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana müdiri: Blajevski*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 2 təşrini-əvvəl iclası

**Sədr:** Həsən bəy Ağayev
**Katib:** Əhməd Cövdət

Sədr iclası açaraq məsaili-yövmiyyəni [gündəlik məsələləri] elan edir. Birinci növbədə torpaq məsələsidir.

Ərazi naziri bu münasibətlə Məclisi-Məbusana bir məktub yazaraq, torpaq məsələsi haqqında hökumət tərəfindən mükəmməl məlumat və materiallar hazırlanıb, bir layiheyi-qanuniyyə [qanun layihəsi] tərtib verildiyini və həman layihənin bu yaxınlarda Parlamana idxal ediləcəyini bildirərək, Məclisi-Məbusan komissiyası tərəfindən təqdim edilmiş olan layiheyi-qanuniyyənin müvəqqətən növbədən götürülməsini və hər iki layihəyə birdən baxılmasını xahiş etmişdir.

Sədr bu məktubu elam edir [bildirir]. Bunun üzərinə uzun mübahisə açılır. Sosialistlərdən bir çox natiqlər çıxaraq bu layihənin təxirə salınması ilə torpaq məsələsinin həllini[n] gecikdir[il]mək istənildiyini qeyd edərək, layihənin bir an əvvəl baxılmasını tələb edirlər.





**Qarabəyov** (İttihad) – Biləks [əksinə], məsələnin təxiri bu gün baxılmasından xeyirli olduğunu isbatla, təcilini [təxirə salınmasını] tələb edir.

**Rəsulzadə** – Sosialistlərin bu tələbdən məqsədləri torpaq məsələsinin həlli deyil, Parlamanda kəndlilər tərəfdarı olduqlarını və onların əleyhinə gedən bir qrup bulunduğunu göstərmək olduğunu qeydlə, layiheyi-qanuniyyənin əslinə keçərək, bunun qəbulu ilə torpaq məsələsinin heç də həll edilmiş olmadığını isbata yetirir və təxirini tələb edir.

**Qasım [bəy Camal]bəyov** (Sosialist) - Layihəyə bu gün baxılmasını istəyir.

**Səməd ağa Ağamalıoğlu** - Torpaq məsələsinin bir an əvvəl həlli lazım olduğunu isbata çalışır. Nəhayət, hökumətdən 15 gün zərfində layiheyi-qanuniyyənin Parlamana gəlməsini tələb etmək şərti ilə torpaq məsələsinin iki həftə müddətinə təxirini təklif edir.

**[Əliheydər] Qarayev** (Sol "Hümmət") - Təxirə etiraz edərək salondan çıxır.

Çox mübahisə və münaqişədən sonra məsələ növbədən götürülür.

"İttihad" fraksiyası öz sorğularının birinci növbəyə keçirilməsini tələb edirlər. Fəqət Nizamnaməyə zidd olduğundan təklif qəbul edilməyir.

Sonra Parlaman məmur və xidmətçiləri maaşlarının artırılması haqqındakı layiheyi-qanuniyyəyə baxılaraq, müstəcəl [təcili] olmaq üzrə 3-cü qiraətində bilaetiraz [etirazsız] qəbul olunur.

Bədəhu [ondan sonra] hökumət ixtiyarına buraxılmış olan 40 milyon qurtardığından, 40 milyonluq fondun 70 milyon edilməsi və bu surətlə hökumət ixtiyarına daha 30 milyon manat pul buraxılması haqqındakı layiheyi-qanuniyyə 1-ci və 2-ci qiraətdə bilaetiraz qəbul olunur.

Bundan sonra, əsgərlikdən azad edilənlərdən alınan verginin ləğvi haqqındakı layiheyi-qanuniyyə 3-cü qiraətdə qəbul edilir. Nəhayət, Azərbaycan əcnəbi məmləkətlərə spirtli məşrubat [içkilər] vergilərinin artırılması haqqındakı layiheyi-qanuniyyəyə baxılaraq, qanun əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunub, balıq və balıq məhsulatı ixracı haqqındakı layihəyə keçilir.

Burası dəxi uzun mübahisələrə bais olur. Başda Malxazyan olmaq üzrə bəziləri ümumiyyətlə ticarətə rəvac vermək və məmləkətin ixracatını artırmaq nöqteyi-nəzərini müdafiə edərək, gərək balıq və gərəksə balıq məhsulatının əcnəbi bazarlara bilamümaniət [maneəsiz] buraxılması, hətta ixracat şəraitinin yüngülləşdirilməsini tələb edir və bu mülahizə ilə qanunu qeyri-məqbul görürlər.

Başda Rəsulzadə Məhəmməd Əmin olmaq üzrə digər bəziləri isə şimdiki şərait altında fövqəlzikr [yuxarıda qeyd olunan] nöqteyi-nəzərin əsassızlığını isbat və əcnəbi bazara göndərilən mal müqabilində nə o qədər mühüm əmtəə gətiriləcəyini, nə də məmləkətimizin bu təriq [yol] ilə qızıl ilə zənginləşdirilə biləcəyini qeyd edərək, bu mülahizə ilə də nəqliyyatın artırılması və ticarətə rəvac verilməsinin Azərbaycana gözlənilən mənfəəti olmayacağını göstərərək, deyirlər ki, barı öz mətamızı [mallarımızı] məmləkətimizdə çox bulundurmaq və əhalini təmin etmək üçün böylə şeylərin ixracını təhdid etmək [məhdudlaşdırmaq] lazımdır.

Bu mülahizə ilə də bunlar layiheyi-qanuniyyəni müdafiə edirlər.

Layihə birinci və ikinci qiraətdə qəbul olunur. İclas bununla qurtararaq “İttihad” fraksiyasının sorğusu oxunur. Fəqət rəsmi cəhətdən Nizamnaməyə müvafiq olmadığından qeyri-məqbul görülərək geri qaytarılır.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan radio mövqifi tərəfindən alınmışdır)*

*(Bolşevik xəbərləri)*

**Almaniyanın cavabı**

Almaniya hökuməti Baltik sahilini təxliyə etmək münasibətilə Müttəfiqlər tərəfindən verilən notaya cavab olaraq, Almaniya əsgərlərinin Baltik sahilindən çıxarılmaları üçün bir çox cəza tədbirləri ittixaz edildiyini [cəza tədbirləri görüldüyünü] xəbər verir. Sərhəd qapanmışdır. General [Rüdiger] fon der Qolts geri dəvət edilib, əsgərlər dəxi təbəiyyət etməyə [tabe olmağa] dəvət olunurlar. Bu tədbirlər Almaniya hökumətini ədalətsiz töhmətdən qurtarmalıdır. Çünki Almaniya əsgərlərinin imtinası Rusiya torpağını təxliyə etməmək arzusu kimi ədd [hesab] edilir. Müttəfiq dövlətlər Almaniya əhvalına aşinadırlar ki, Almaniya hökuməti kifayət qədəri hərbi qüvvə ilə icrayi-təsir etməyə malik deyildir. Almaniya hökuməti alman əsgərlərinin rus əsgəri dəstələrinə daxil olmalarına mənfi bir surətdə baxıb, heç vaxt buna riza verməmişdir. Almaniya hökuməti təxliyə üçün əlində olan vəsaili [vasitələri] sərf etməkdədir. Lakin Almaniya hökuməti ərzaqdan məhrum ediləcəyi təhdidi əleyhinə ciddi surətdə protesto edir. Müttəfiqlərə məlumdur ki, aclıq nə qədər insanların həlakətinə [həlak olmasına] bais olub və zəhmətkeşləri işdən məhrum edir. Almaniya hökuməti inanır ki, Müttəfiq dövlətlər Almaniya əleyhinə bu cür tədbirlər görməkdən çəkinərlər. Almaniya əhalisi Baltik sahilində olan əsgərlərin hərəkətinə görə tamamilə müttəhim edilə bilməz. Almaniya hökuməti lazımi tədbirlər görülməsi üçün Almaniya və Müttəfiq dövlət nümayəndələrindən ibarət bir komissiya təyin edilməsini təklif edir.

**Noskenin əmri**

Almaniya dövləti müdafiə naziri Noske əmr etmişdir ki, 6-cı ehtiyat qolordusu [korpusu] əsgərləri tezliklə Şaulen nahiyəsinə gətirilsinlər. Aparılması qeyri-mümkün olan mühimmati-hərbiyyə [hərbi ləvazimat] məhv edilməlidir.

Əmrə tabe olmayanlar siyahıdan pozulub, məvacibdən məhrum ediləcəklərdir. İkinci əmrdə Rusiya xidmətinə daxil olmaq qadağan edilir. Bu cür şəxslər cəzaya giriftar ediləcəklərdir. Övdət edənlər [qayıdanlar] məsuliyyətə cəlb ediləcəklər. Qayıtmaq istəməyənlər Almaniya haqq-hüququndan məhrum olacaqlardır.

**Çex heyəti**

Çex-slav hökuməti Almaniya ilə ticarət münasibatını bərpa etməkdən ötrü Berlinə bir heyət göndərmişdir.

**Amerika əsgərlərinin üsyanı**

Koblensdən xəbər verirlər ki, Amerika əsgərləri üsyan qaldırmışlardır. Bununla bərabər, Amerika işğaledici məmurlarının elanı dərc edilmişdir ki, əhali asayişə dəvət edilir. Bu elan dərc edildiyi zaman bolşevik təhlükəsi olduğu göstərilir.

**Bolşeviklərin dəvəti**

Moskva Bolşevik Komitəsi əhaliyə müraciətən nəşr etdiyi dəvətində zəhmətkeşlər hökuməti yolunda vahid inqilab bayrağı altına cəm olmağı təklif edir. Oktyabrın 8-dən 15-inə qədər firqə üzvlüyünə azad bir surətdə yazılmaq mümkün olduğu xəbər verilir.

**İngiltərə tətili**

Liondan xəbər verirlər ki, Dəmiryol Tətil Komitəsi Lloyd Corc ilə müşavirədə bulunmuşdur. Müşavirə qurtardıqdan sonra tətilin bitdiyi haqqında elan verilmişdir.

**Bolşevizm əleyhinə**

Parisdə olan Cümhuriyyət firqəsi yeni intixablar [seçkilər] münasibətilə bolşeviklər əleyhinə müttəhidən [birgə] mübarizə etməkdən ötrü Milli Blok təşkil etmişdir.

**Vilsonun əhvalı**

Vaşinqtondan xəbər verirlər ki, Vilsonun halı təbəddülatsızdır [dəyişməmişdir]. Rəisi-cümhur müavini [vitse-prezident] [Tomas Rayli] Marşall, Vilsonun vəzifəsini ifaya başlamışdır.

## SÜLH XƏBƏRLƏRİ

**Əmir Faysal Londrada**

Londra 21 (T. H. R.) – Əmir Faysal Parisdə təvəqqüf etməksizin [dayanmadan], səyahətinə davam ilə pəncşənbə [cümə axşamı] axşamı Londraya müvasilət etmişdir [getmişdir]. Suriya məsələyi-əsasiyyəsi [əsas məsələsi] Parisdə həll edilmiş bulunduğu cəhətlə, əmir Londrada yalnız hüdudların təyini məsələsini müzakirə etmişdir.

“Tayms” qəzetəsi nəşr etdiyi bir baş məqalədə eynən deyir ki:

*“Suriya və Fələstinin mahiyyətləri tə’lin edilməsi [elan edilməsi] lazım gələn bir məsələdir.”*

## QƏZETƏLƏRDƏN

**Rostovda Müsəlman İşləri Komissiyası**

Ədyan [Dinlər] şöbəsi müdiri knyaz [Yevgeni] Trubetskoyun rəyasəti altında Daxiliyyə, Ədliyyə və Maarif nəzarətləri nümayəndələrindən ibarət müsəlman işlərinə baxıcı bir komissiya təyin edilmişdir. Müsəlman nümayəndəsi Müsəlman Milli Mərkəzi Komitəsi sədri Yusif Həsənoviç Müzəffərovdur.

**Bolşeviklərin arzusu**

Kurskdan “S.” qəzetəsinə çəkilən teleqrafa görə, bolşevik başçıları ilə aşina olanlar xəbər verirlər ki, bolşeviklərin Türküstana köçmək arzuları o qədər artıqdır ki, bunun təsiri altında qış tədarükləri və planlar hazırlanmışdır. Bu axır vaxt Qırmızı ordunun hərbi əməliyyatı Türküstan və Qafqaziya yollarını özləri üçün təmin etmək üzrədir. Bolşeviklər cənub tərəf, Moskva, Samara, Orenburq, Aktyubinsk [Aktobe], Daşkənd, Volqa və Xəzər dənizini ümdə yol hesab edirlər. Buna görə

Baş komandana əmr edilmişdir ki, ümdə yolda durmuş olan Ural əsgərlərini pərişan edib Volqaboyunu və Tsaritsını ələ gətirməkdən ötrü öz qüvvəsini o tərəfə cəlb etsin. Bununla bolşeviklər Çin, Hindustan, İran, həmçinin Rusiya ətrafının avam əhalisindən istifadə edəcəklərinə ümidvardırlar. Çin, Hindustan və İran tərəflərinə göndərilmiş olan agentlər bolşevik fikrinin bu məmləkətlərdə müvəffəqiyyət kəsb etdiyini [qazandığını] söyləyib, hələliyə oraya inanılmış rəhbərlər və hərbi qüvvə göndərməyi lazımədd [hesab] edirlər. Hindustan əhalisi İngiltərə hakimiyyətindən xilas olub bütün ingilisləri xaric etməyi vəd edirlər.

**Bolşeviklərin İngiltərə əhalisinə müraciəti**

Petroqrad Şurasının qərarı mövcibincə [qərarına əsasən], İcraiyyə Komitəsi tərəfindən simsiz teleqrafla İngiltərə əhalisinə böylə bir müraciətnamə göndərilmişdir:

*"Sizin hökumətiniz izhar edir [bildirir] ki, o, Rusiya Şura hökuməti əleyhinə müharibə etməyib, guya ki, öz əsgərlərini Arxangelskdən və Murmandan aparır.*

*Sizin hökumətiniz izhar edir ki, o ancaq bolşeviklərlə mübarizə üçün qaragüruh generalları Kolçak, Denikin və Yudeniçə kömək edir. Əlbəttə, böylə bir müavinət rus xalqı işlərinə alçaq və qarətgərlik bir müdaxilədir. Lakin İngiltərə hökuməti bundan daha artıq işlər görür.*

*Budur, bir aydır ki, İngiltərə təyyarəçiləri Kronştadta bomba buraxırlar. Bu bombalardan bir neçə arvad və uşaq həlak olmuşdur. Avqustun 18-ci gecəsi İngiltərə gəmiləri açıq-açığına Kronştadt üzərinə quldurvari hücum etmişlərdir. Bu gəmilərdən üçü bizim tərəfimizdən qərq edilib, bir nəfər zabitlə 10 nəfər ingilis əsgəri əsir edilmişdir.*

*İndi siz hökumətinizin nə cür yalan söylədiyini görünüz. Nə vaxta qədər siz gözləyəcəksiniz ki, hökumətiniz Rusiyaya müharibə elan eyləməmiş, ancaq quldurlara yaxışar bir hərəkəti özünə rəva görsün. Rusiyanın əmələ [fəhlə] və zəhmətkeş kəndliləri axırıncı qətrə qanlarına qədər imperialist qarətgərləri əleyhinə müharibə edəcəklərdir. İngiltərə əmələ, saldat və maryakları [matrosları] cəlladlar hökumətini endirər."*

**TÜRKİYƏDƏ**

*(İstanbul qəzetələrindən)*

**Mütarikə Komisyonu**

Dün Mütarikə [Atəşkəs] Komisyonu Fəxrəddin bəyin təhti-rəyasətində ictima ilə [başçılığı altında toplaşmaqla] təbəeyi-Osmaniyyədən [Osmanlı vətəndaşı] olub Avropaya əzimət [getmək] arzusunda bulunanlar və Avropadan məmləkətlərinə dönmək istəyənlərin səyahətlərinə mütəəlliq [dair] müzakiratda bulunmuşdur. İttixaz olunan müqərrərat [qəbul edilən qərarlar] məhrəm tutulmaqdadır. Yalnız güzəran edəcək olan müamilatın [tətbiq ediləcək əməliyyatların] şəkli bərvəchi-atidir [aşağıdakı kimidir]:

Avropaya əzimət edəcək olanların məlum və müəyyən şəxsiyyətlərdən bulunması icab etməkdə [lazım gəlməkdə] və Avropadan hüdudi-Osmaniyyəyə daxil olacaqların isə əvvəla buraca təhqiqi-





hüviyyətləri [şəxsiyyətlərinin müəyyələşdirilməsi] icra ediləcək və onların vətənlərinə övdətlərində [qayıtmaqlarında] heç bir məhzur [ehtiyat ediləsi şey] bulunmadığı yüksək məqamatdan [məqamlardan] Mütarikə Komisyonu rəyasətinə təbliğ edildikdən [bildirildikdən] sonra, övdətlərinə müsaidə olunacaqdır.

**"Hürriyyət və Etilaf"ın bir ərizəsi**

"Hürriyyət və Etilaf" firqəsi [partiyası] mərkəzi-ümumisi əzasından [üzvlərindən] bir qaç zat yədiylə [bir neçə şəxsin əliylə] Sədrəzəm paşaya [Baş nazirə] aşağıdakı ərizəni tövdi etmişlərdir [vermişlər]:

*"Hüzuri-samiyi-sədarətpənahiyə [Baş nazirin uca hüzuruna]!*

*Xəlifeyi-müslimin əfəndimizin, mütayi-üməm olan bəyannameyi-hümayunlarından müstəban olduğu vəchlə [Müsəlmanların xəlifəsi əfəndimizin, ümmətin itaət etdiyi mübarək bəyannaməsindən aydın olduğu kimi], İzmir hadisəsi kimi əxirən [axır vaxtlar] məmləkətin məruz bulunduğu bəzi əhvaldan dolayı millətdə peydərpey [dalbadal] hüsula gələn həyəcanları hədəfindən inhiraf etdirərək [yayındıraraq], bundan mənafeyi-dinü dövlətə müğayir [dinin və dövlətin mənafeyinə zidd] surətdə istifadə etmək yolunu tutan və bu vəsilə ilə kəndilərində bəqeyri-haqq [haqsız surətdə] millət namına [adına] söz söyləmək cürətini görərək, hökumətin müvəffəqiyyati-siyasiyyəsini təqim etmək [siyasi müvəffəqiyyətlərini səmərəsiz qoymaq] və binnəticə [nəticə etibarilə], millət və dövləti əsiri-mənafeyi ittixaz eyləmək [öz mənafeyinin əsirinə çevirmək] istəyən ərbabi-təsvilin amalını tətmin eyləmək [mənfi halı müsbət kimi qələmə verərək aldadanların niyyətlərini yerinə yetirmək] sevdasına düşən və nisbəti-vətəniyyələri məşkuk [vətənə sədaqətləri şübhəli] və həyatları daima ixtilal ilə şaibədar [ləkələnmiş] olan bəzi kimsələrin hökumətə qarşı hücum üçün gah firqəçilik, gah bitərəflik və firqəsizlik kimi mütənaqiz [birbirinə zidd] və müxtəlif tə'biyyələrlə [taktikalarla] məmləkətdə daima şiqaq ehzarına [qarşıdurma əmələ gətirməyə] çalışmalarını, vətənin nə'f [xeyir] və zərərini kəndi nə'f və zərəri ədd [hesab] edən və bu uğurda hər fədakarlığa mühəyya [hazır] bulunan və əsrlərin təcrübələri ilə sabit olduğu üzrə xəlifə və padşahlarına və hökuməti-məşruələrinə [qanuni hökumətlərinə] sədaqət və itaət xəsaili ilə mümtaz olan [xislətləri ilə seçilən] vətənin öz [doğma] övladlarının təcviz edəmməyəcəklərini [razılıq verməyəcəklərini] xaki-payi-səniyyəyə ərzini [uca padşahın ayağının torpağına çatdırılmasını] istirham [xahiş] eyləriz."*

**Nəşr ediləcək vəsaiq**

Yunan işğalından sonra İzmir vilayəti daxilində vüqua gələn fəcayeyə [yaşanan faciələrə] dair rəsmi və fənni vəsaiqin [rəsmi və elmi vəsiqələrin; sənədlərin] bir qismi kitab halında toplanmışdı. Əxirən [sonradan] buna ikinci bir cildin əlavəsi lüzumu hasil olaraq, Mütarikə Komisyonu tərəfindən müfəssəl bir kitab hazırlanmaqdadır. İstixbarati-mötəmədəmizə [aldığımız etibarlı məlumatlara] nəzərən, fəcayenin əsl ən qorxunc vəsaiqi-rəsmiyyə [rəsmi sənədlər] olan şəkillərini bu cild ehtiva edəcəkdir. Bu kitab yaxın vaxtda itmam olunacaqdır [tamamlanacaq].

**Ayrımı, bərabərmi?**

Bir çox təşəbbüsat və məsai [səylər] nəticəsində, nəhayət, xanımların Məktəbi-

Tibbiyyəyə düxullarına [Tibb məktəbinə daxil olmalarına] müsaidə edildi. Fəqət ortaya şimdi bir də müxtəlit [qarışıq; oğlan-qız qarışıq] tədrisat məsələsi çıxdı. Əsas etibarilə xanımların tibb təhsili əleyhində bulunanlar, təbiidir ki, müxtəlit tədrisat məsələsinə etiraz edənlərin sərамədanını [başçılarını] təşkil edir.

Əxlaqı iffəti-cəbriyyədən [zorla namuslu olmaqdan] ibarət zənn edənlər, digər fəzaili-insaniyyəyə [bəşəri fəzilətlərə] fəri [ikinci dərəcəli] birər əhəmiyyət ətf eyləyənlər, şübhəsiz nə xanımlarımızın tibb təhsilinə, nə də müxtəlit tədrisata tərəfdar olacaqlardır.

Dün mühərrirlərimizdən birisi müxtəlit tədrisat haqqında Maarif ərkanının [Maarif Nazirliyinin vəzifəli şəxslərinin] fikrini anlamaq üzrə müstəşar Əli Rəşad bəyə müraciət etmişdir. Əli Rəşad bəy bu məsələdəki fikrini şu yolda izah eyləmişdir:

*“Bu xüsusda söylənməsi lazım gələn şeylər söyləndi. Biz müxtəlit tədrisata tərəfdar deyiliz. Fakültə müdərrisləri [müəllimləri] xanımlara ayrı, erkəklərə ayrı tədrisatda bulunmağa müvafiq[ət] edərlərsə [razılıq verərlərsə], biz də qəbul edəriz. Həm baxalım Avropada tibb təhsil edən xanımlarımız övdət etsinlər [qayıtsınlar], ondan sonra bu məsələni daha əsaslı bir surətdə düşünə biləriz.*

*Yalnız bizim məmləkətimizdə deyil, Avropanın bir çox məmləkətlərində, məsələn Almaniyada xanımlar sənayeyi-nəfisə [incəsənət] məktəbində erkəklərlə birlikdə təhsil edəmməzlər. İngiltərədə belə qadınlar darülfünunda [universitetdə] müxtəlitən təhsil etməyirlər.*

*Aqil Muxtar bəyin dediyi kimi, xanım və erkək, hər ikisi də birdən icrayi-təbabət [həkimlik] edəcək olarsa, o zaman evə kim baxacaq? Vəlhasil, bu məsələ təsdiq və tədqiqə pək ziyadə möhtacdır. Qolay-qolay həll ediləmməz.”*

Abdullah Cövdət bəy nə deyir?

Rəşad bəyin bu izahatından sonra mühərririmiz bu məsələdə pək çox söyləyən və yazan Səhiyyə müdiri-ümumisi Abdullah Cövdət bəyə də uğramış və fikrini istizah etmişdir [soruşmuşdur]. Abdullah Cövdət bəy deyir ki:

*“Mən əməlimə [arzuma] müvəffəq oldum. Xanımlarımızın tibbiyyəyə qəbul edilmələrini təmin etdim. Bu xüsusda nə qədər çox çalışdığımı və bütün mövcud məvaniyə [maneələrə] nasıl müqabilədə bulunduğumu, şübhəsiz, bilirsiniz. Müxtəlit tədrisat məsələsi isə fəridir [ikinci dərəcəlidir]. Fəth edilən bir məmləkətin surəti-idarəsinə bənzər. Əsl müşkül, məktəbə xanımların düxulu idi. Buna müvəffəq olduqdan sonra ötəki kəndiliyindən, əlbəttə, həll ediləcəkdir. Binaənileyh [ona görə], nə denilirsə, denilsin, həp boşdur. Zamanın və əsrin istədiyi olar.”*

Əkrəm Xeyri bəyin fikri

Mühərririmiz başqa bir məsələ üçün nəzdinə [yanına] getdiyi İstanbul Səhiyyə müdiri Əkrəm bəyin də bu xüsusda əlaqədar olmasından dolayı fikrinə müraciət etmişdir. Əkrəm bəy mühərririmizə fikrini şu surətlə izah edir:

*“Çox arzu edirəm ki, erkək və qadın birlikdə oxusun. Bundan qüruni-vüstai təlaqqilərlə məhmul zehniyyətlərin [Orta əsrlərə məxsus düşüncələrlə yüklənmiş beyinlərin] təsəvvür və təsvir etdikləri məhzurların [çəkiniləsi şeylərin] heç biri mövcud deyildir və olammaz. Əsasən, bu müxtəlit tədrisat məsələsi deyə ortaya bir məsələ çıxarmaq doğru deyildir. Anadoluda qadınlar erkəklərdən qaçmazlar və bu üsul əfkari-ammə müvacihəsində [ictimaiyyət nəzərində] heç bir zaman düçarimüaxizə [məzəmmət edilməyə layiq] olmaz və olmayacaqdır. Əgər burada da müxtəlit tədrisat deyə ortaya bir məsələ çıxarılmamış olsaydı, bu da qayət təbii və doğru bulunardı. Anlamayıram, qadın ilə erkəyin birlikdə dərs oxumasında məhzur bulanlar nəyə istinad edirlər.*

*Müxtəlit tədrisatda təsəvvür edilmək istənilən məhzurlara qarşı məşğuliyyət ən əsaslı bir dəvadır. Bir kərə tibb ilə məşğul olan bir xanım və erkək artıq başqa bir şey düşünəmməzlər. Bu gün çocuqları sui-istemaldan mən’ [sui-istifadədən uzaqlaşdırmaq] üçün ən əsaslı tədbir onları məşğul etməkdir. Binaənileyh [ona görə], mənən pək fəzlə yorulan tələbələr üçün bütün məhzurlar ortadan qalxmış deməkdir.”*

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(Sabiqki məqalələrə əlavə)*

\- 2 -

Əlbəttə, Türkiyə rus ilə müharibə etdikdə öz milli mənfəətini gözləyirdi. Fəqət heç bir kəsin ağlına gəlməyirdi ki, yeriş böyük rus inqilabına yol açacaq və cəmi millətləri xoşbəxt edəcək və cahangirlik [imperializm] bəlasından qurtaracaq. Ancaq türklərin böyük bir qüsuru o idi ki, rus çarlığını yıxdıqdan sonra müharibəni dayandırmadılar və bitərəfliyi qəbul etmədilər.

Türk balaları neçə dəfə Dardaneldə, Çanaqqala və qeyri yerlərdə dünya və aləmdə özlərinin rəşid və cəsur olduğunu isbat edib, bundan böylə öz qüvvələrini daxili işlərinə sərf etməlidirlər və bundan sonra öz məmləkətlərinin tarixi səhifələrini ziynətləndirsinlər. Əlbəttə, gizlətmək lazım deyildir ki, Almaniya ilə arxadaşlıq etdikləri üçün Müttəfiq dövlətlər Türkiyəyə çox siyasi zərbə və təpiklər vurdular. Amma türk milləti gərək bundan darıxmayıb təhəmmül edələr [tab gətirələr], necə ki, dəmir döyülə-döyülə polad olar. Habelə də bir millətin bədəninə dəyən zahiri siyasi sədəmə [zərbə] onun ruhunu oyadar və zehnini əlbəttə açar.

İndi baxaq görək nə nəticə verərdi əgər Türkiyə Rusiya və Müttəfiqlərlə alman və Avstriya əleyhinə çıxa idi? Onda heç bir vaxt Rusiya inqilabı bu qədər baş qaldırmayacaqdı və qaldırdığı təqdirdə, asancasına əziləcəkdi. Bəlkə rus cahangirləri daha da fəthdən istifadə edib istibdadı daha da artıracaq idilər və Almaniyanı ortalıqdan qaldırdıqdan sonra Rusiya ilə həmhüdud olacaqdılar və biri-birisinin qorxusundan daha artıq silah və top-tüfəng fikrinə düşəcəkdilər. Və gecitezi bunun axırı yenə müharibə olacaqdı və insanlar yenə bəlaya giriftar olacaqdılar.

İndi isə ingilis və qeyri millətlər Almaniya və Rusiya kimi cahangir məmləkətlər ortalıqdan götürüldüyü təqdirdə kəndi hökumətlərini vadar edəcəklər tərki-silah etməyə və qoşunun [tərxis etməyə]. Əks surətdə cahangirlik ortalıqdan gö-

türülməyəcək. Təfavütü o olacaq ki, bir cahangirlik fikrinə düşən Almaniya, Avstriya əvəzinə meydana ingilis və Amerika cahangirlik fikri tərəfdarları çıxacaq öz hərbi gəmiləri və silahları ilə.

Dünyada yaşayan millətlərin bilafərqi-məzhəbü din [məzhəb və din fərqi olmadan] rahatlığı asılıdır Avropa və Amerikanın siyasi iştahasından. Nə qədər ki, Yevropa dövlətləri zəif hesab olunan digər məmləkətlərin, məsələn Şərqdə yaşayanların yerlərinə və mallarına göz dikəcək olacaqlar, o qədər də dünyada nə asayiş ola biləcək, nə də tərəqqi.

Bir az vaxt bundan əqdəm [qabaq] Parisdə Versal imarətinin salonunda Müttəfiqlərlə Almaniya sülh imzaladı. Lakin Almaniya üçün böylə bir sülh böyük bir matəm oldu. Necə demək olar ki, şimdidə və gələcəkdə qardaşlıq məhəbbəti və Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] hasilə gələcəkdir. Bu surətdə ki, alman milləti gözüyaşlı, yeni bir aləmdə tarixi həyatına daxil olur.

Qaldı ki, Türkiyə və türk milləti, onlar dəxi ürəyi döyünə-döyünə öz qətl fərmanlarını və Şərq məsələsinin həmişəlik olaraq həll olunmasını gözləyirlər. Əgər doğrudan da, Türkiyə dövlətinin parçalanması haqqında gələn xəbərlər Versal salonunda əyləşənlər tərəfindən nəşr olunur, o vaxt Versal Konfransı gələcəkdə millətlər qardaşlığı arasında bir nicat körpüsü olacaq deyil, bəlkə də böyük mübahisələrə bais olacaqdır.

50 il bundan əqdəm həmin parlaq Versal salonunda almanlar bir təmtəraqlı halda ikən, firənglər də məyus, pərişan idilər. Fəqət bəxtin təqazasından [tələbindən] bu mənzərə şimdi əksinə görünür. Yalnız o vaxt bəşəriyyət gələcəkdə əmin ola bilər, əgər o parlaq Versal salonunun aynalarına cahan millətlərinin vəkillərinin, – bilafərqi-qalib və məğlub olanları, – əksləri düşəydi.

Məəttəəssüf [təəssüf ki], bunlar həpsi hələlikdə yalnız gözəl-gözəl arzu olub danışılır və bir çox vilsonlar bu məsələnin həllində başlarını yoracaqlar.

Fəqət indi bu gözəl xəyalat aləmindən Azərbaycana doğru qayıdalım.

Həmin bu müxtəsər tarixi və siyasi məruzəmi xitama yetirməklə, bir də nəzərimi həyata və meydana təzəcə qədəmlərini qoyan və tərənnümə gələn Azərbaycana doğru atam. İndidən vətənimizin qabağında gözəl, tarixi və işıqlı mənzərələr görünür. Biz cəmi dünyanın millətləri ilə dostluqda baqi [əbədi] qalıban, siyasi təqlid məsələsinə gələk, o nöqteyi-nəzərdə dayanaq ki, hamısından salamat və mənfəətli təqlid odur ki, millət öz xüsusi gücünə, mədəniyyətinə, qüvvəsinə söykənib, ehtiyac nəzərini ətrafa dolandırmasın.

Mən bütün imanla təkrar edirəm ki, bizim istiqlaliyyətimiz yaxın zamanda təsdiq olunacaqdır və cənabi-Haqqın tövfiqi [köməyi] ilə biz özümüzü mədəni millətlərin sırasında görəcəyiz. Qeyri millətlərin yanında hörmətimizin baqi qalmasına ən lazımi surətdə səy etməliyik. Məmləkəti və milləti hörmət və izzət dərəcəsinə gətirə biləcək qüvvə ancaq cavan ziyalılarımızın çalışqanlığından asılıdır. Hərgah ziyalılarımızda zərrəcə də olsa, vətənin çəkdiyi müsibət hissi və duyğusu olarsa, – şübhəsiz, olmasına etiqad edirəm, – o zaman onların ittifaqından, fədakarlığından, sədaqət və hümmətlə yetirdikləri müavinətdən, eyni zamanda siyasi, şəxsi firqəbazlığı kənara atıb yekvücud və yekdil çalışmaqlarından, əminəm, vətənimiz az bir zamanda sahilinicata varmış olsun. Zatən ... fədakarlıqla, bir-birimizin ehtiramını gözləməklə, ümid edirəm istiqlaliyyət və dövlət muradımıza nail olaq.

Mən ibtidada sözümü "Azərbaycan", yəni "od mə'dəni" ləfzi ilə başlamışam. Yenə həmin ləfz ilə sözümü itmama yetirirəm.

Mən məruzəmin əvvəlində göstərdim ki, paytaxtımızın yaxınlığında, Suraxanıda əskidən bəri davam edən atəşkədələrə babalarımız səcdə edərdilər, ... həman mə'bəd, haradan ki, Azərbaycan səltənəti oradan siyasi nur alır, o, xalqımızın Məclisi-Məbusanı mənzilləsindəndir [yerindədir]. Azərbaycan Məclisi-Məbusanının və yaxın bir zamanda çağırılacaq Məclisi-Müəssisanının üzvləri həmin o zatlardır [şəxslərdir] ki, Azərbaycanın alışmış istiqlaliyyət odunun dövrəsində əl-ələ verərək həlqə kimi bürüyüb tutsunlar və buraxmasınlar ki, Şimaldan və sair yerlərdən gələn küləklər o müqəddəs atəşi söndürsün.

Çünki hamıya məlumdur ki, xudanəkərdə [Allah eləməsin], bizim istiqlaliyyət çırağımız sönüb, o bayraq cırıldıqdan sonra biz azərbaycanlıların dünyada yaşamağımızın əsla mənası yoxdur.

Qoy bundan sonra Cümhuriyyətimizin nişanı olan hilalın qucağında al-qırmızı içində növcavan yıldızımız işıqlı və şəfəqli nur ilə vətənin həqiqi övladlarının yollarını nurlandırıb müsibət çəkmiş milləti aydınlığa çıxartsınlar.

*(son)*

*Adil xan Ziyadxan*

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Ermənistan hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəsi [Məhəmməd] xan Təkinskinin istefasına dair**

Xariciyyə Nəzarəti tərəfindən işbu eylülün 29-da Ermənistan hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəliyinə bu məzmunda bir məktub göndərilmişdir:

Möhtərəm Məhəmməd xan!

Sizin istefa haqqındakı raporunuz tərəfimdən hökumətə təqdim edilərək, nəticəsində qəbul edilmişdir.

Bununla bərabər, səmimi olaraq sizin Azərbaycan yolundakı ciddi çalışmanızı qeyd etməliyəm. Azərbaycanın dövləti işlərə qədəmnihad olduğu [addım atdığı] və müşkül bir zamanda üzərinizə düşən vəzifələri layiqincə ifa etdiyinizdən dolayı, hökumətin tapşırmasına məbni [əsasən], sizə təşəkkürlər izhar edirəm.

Səmimiyyətimin qəbulunu rica edirəm, əfəndim.

*Xariciyyə naziri: M. Y. Cəfərov*

**Maliyyə nazirinin nitqi**

Azərbaycan Dövlət Bankası rəsmi-güşadı [açılış mərasimi] münasibətilə Maliyyə naziri həzrətləri tərəfindən irad buyurulan [söylənən] nitqin əhəmiyyəti-ictimaiyyəsinə görə qəzetəmizə dərci münasib görüldü.

Möhtərəm xanımlar və möhtərəm əfəndilər!

Vətəndaşlarımızın asudə yaşaması, əhalinin qanun müdafiəsi təhtində [altında] olaraq emalati-nafiə ilə iştiğal edə [faydalı istehsalla məşğul ola] bilməsi təmi-

ni üçün məmləkətdə əmnü asayiş [əmin-amanlıq] bərpa etmək qayğısı ilə bərabər, məmləkətin ticarət, sənaət [sənaye] işlərini təşkil və təsis etmək və onun tövsiyi-dairə etməsi [genişlənməsi] üçün fəaliyyətdə bulunmaq vəzifəsi də hökumət öhdəsinə tərəttüb edir [öhdəsinə düşür].

Maliyyə Nəzarəti idarəsini əlimə aldığım gündən etibarən bir tərəfdən dövlət mədaxilinin təzyidi [artırılması], dövlət büdcəsinin tədil [düzəldilməsi, yaxşılaşdırılması] və tənzimi və bilümum [ümumiyyətlə, bütün] maliyyə əhvalının tənsiqi [yoluna qoyulması], digər tərəfdən isə ticarət, sənaət işlərinin tövsisi [genişləndirilməsi] və paramızın sağlamlaşması niyyəti ilə mütəəddid ləvayehi-qanuniyyə [çoxasylı qanun layihələri] tərtibinə şüru edilmişdir [başlanmışdır].

Onu da göstərməliyəm ki, əvvəlinci növbədə olaraq mən Dövlət Bankası Nizamnaməsini tərtib verməyi lazım bilmişdim. Zira bu mühüm idarənin səriyyən [sürətlə] təsisi hökumət üçün dövlət nöqteyi-nəzərindən xüsusi bir əhəmiyyəti haiz idi [əhəmiyyət daşıyırdı] və bu idarə vasitəsilə məmləkətin siyasəti-maliyyəsi əldə edilərək, onu Azərbaycan əhalisi mənafeyinə tətbiq etmək mümkün olacaqdır.

Söyləyirlər ki, Dövlət Bankası ancaq sərmayədarların mənafeyinə xidmət üçün təsis edilir. Əlbəttə, onu inkar etmək olmaz ki, Dövlət Bankası güşadı [açılması] ilə sərmayədarlar sərvətlərini mühafizə üçün əlverişli bir məkan bulub, əvəzinə dövlət təminatını da alırlar. Fəqət həmin bu banka müavinəti ilə xırda istiqraz idarələri təsisi də mümkündür ki, onların vasitəsilə alın tərləri ilə ətməklərini qazanan köylüləri müavinəti-nəqdiyyə ilə təchiz edərək, axırıncı damla qanlarına kimi soran "müamiləçi" [sələmçi] və möhtəkirlərin pəncələrindən təxlis [xilas] etmək olacaqdır.

Bu təriq [yol] ilə əhalinin nisfini [yarısını] təşkil edən köylülərin iqtisadi övzası [vəziyyəti] gözəlləşə biləcəkdir. Əhalinin qismi-əhəmminin [əhəmiyyətli hissəsinin] maddətən təmin edilməsi, yəqin ki, məmləkətin əhvali-ümumiyyəsinə də hüsn-təsirsiz keçməyəcəkdir.

Həmin bu banka vasitəsilə hər tərəfdə və başlıca olaraq fəhlə sinfi dairələrində mütəəddid [çoxsaylı] əmanət sandıqları [əmanət kassaları] açmağa hökumət imkan bulacaq və şu təriqlə fəhlələr həqqül-zəhmətlərindən [zəhməthaqlarından] dal gün üçün mühafizət etməyə alışdırıla biləcəklərdir.

Xalq nüqudu [nağd pulu] mühafizəsinin məmləkət üçün nə kimi füyuzat intac edə biləcəyi [feyzlərlə, bərəkətlərlə nəticələnə biləcəyi] məsələsi aşkar olduğu üçün mən bu barədə təfsilat verməyəcəyəm.

Bir dövlət kəndisini siyasətcə o zaman müstəqilədd [hesab] edə bilər ki, iqtisadca müavinəti-xaricəsiz [xarici kömək olmadan] yaşaya bilsin.

Axırıncı sənələr[in] tarixi qabarıqlı olaraq isbat etmiş ki, iqtisadca müstəqil yaşamağı bacarammayan dövlətlər tez zamanda kəndisindən qüvvəli və sərvətli olan başqa dövlətlər[in] kontrol və qəyyumluğu altına düşərək, az müddət içində siyasi istiqlallarını da qaib etmişlərdir.

Təkrar edirəm ki, ancaq o dövlətlər kəndi istiqlallarını təmin edilmiş ədd edə bilər ki, hansılar ki, kəndi iqtisadi həyatlarını tənzim ilə müavinəti-xaricəyə ehtiyac buraxmamışlar və dövlətin iqtisadi təminatı da məmləkətin emalatı dərəcəsindən asılıdır. Binaənileyh [ona görə], Dövlət Bankası bütün qüvvəsi ilə fabrika, emalatxana sənaətinin [sənayesinin] tövsi etməsinə [genişlənməsinə] səy və xidmət edəcəkdir. Lakin keçirdiyimiz günləri nəzəri-diqqətə aldıqda, sənaətin tezlikcə tövsiyi-dairə etməsinə bel bağlamaq olmaz. Odur ki, şimdilik xırda emalatların, əl işlərinin intişar və tənziminə [yayılmasına və nizamlanmasına] yardım ediləcəkdir.

Azərbaycanın baş emalatı neft məhsulu və ondan hüsula gələn dürlü cövhərləri ixrac etmək üçün hal-hazırda yollar bağlıdır. Və ona görə məmaliki-xariciyyə pulunun (valyuta) vətənimizə idxalı qayət məhduddur. Binaənileyh, rubləmizin qiymətini əksiltməmək üçün lazımdır ki, xaricdən gələn malların mümkün qədər önünü almaq və məvaddi-lazimədən [lazımi maddələrdən] qeyri süs [bəzək] əşyasının idxalına qətiyyən müsaidə verməmək.

Dövlətimizin başlıca sərvətini təşkil edən neft sənaətidir ki, müvəqqəti olaraq pək müşkül vəziyyət içinə düşmüşdür. Lakin Dövlət Bankası tərəfindən neft mədənçilərinə açıqlıqları örtmək və lazımi yerinə sərf etmək üçün geniş müavinət edilir və irəlidə ehtiyac rəf olana [aradan qaldırılana] kimi onlara "ssuda" verməklə müavinətdə davam olunacaqdır da.

Mən onu qeyd etməliyəm ki, hal-hazırda bizim paramız zahirən altun qarşılıq ilə təmin edilməmişdir. Fəqət həqiqətdə isə bizim rubləmiz altundan da qiymətli olan var neftimizlə təmin və təsbit edilmişdir. İmanım bərkamaldır [tamdır] ki, yaxın zamanda Dövlət Bankası vasitəsilə bizim qara altunumuzu həqiqi sarı altunla təbdil etmək [dəyişmək] mümkün olub, buraxdığımız kağız paraları altun fondası ilə təmin etməyə və əhvali-maddiyyəmizi tənzimə imkan olacaqdır.

Neftdən başqa, məmləkətimiz qeyri məhsullar da verir ki, onlardan başlıcaları xammallar, yəni ipək, pambıq, yun, dəri, həmçinin taxıl və əlavə olaraq balıqdır və bu məhsullar məmləkətimizin istehlak edəcəyindən fəzlə dərəcə yetişdiyi üçün mənə itminanla [əminliklə] deməyə cürət verir ki, Dövlət Bankası müavinəti ilə bizim ufacıq, fəqət təbii sərvətlərə malik olan məmləkətimiz kəndi ehtiyacatını rəf etməsindən əlavə, artıq qalan məhsulatı Azərbaycan hüdudu xaricinə ixrac etməklə, xarici valyutanın idxalına xidmət edib, mədəniyyət və iqtisadca irəlidə olan bütün məmləkətlərin arzu etdiyi müvazineyi-ticarətin [ticarət balansının] tənzim edilməsinə imkan verər.

Yuxarıda göstərdiyim, dövlətə aid müamilat [əməliyyatlar] icrasından əlavə, Dövlət Bankası hal-hazırda lərzədar olmuş [dağılmış] və hətta demək olar ki, büsbütün nabud [məhv] olmuş ümumi ticarət istiqrazının bərpa edilməsinə də müzahirət [köməklik] göstərəcəkdir. Məzkur [deyilən] istiqrazın bərpa edilməsi tədbirlərindən biri hesabi-carilərin və mühafizi-nüqudun [nağd pul saxlayanların] əski və yeni "müqəyyəd" inqisamını [bölünməsini] təsviyə [ləğv] etmək olacaqdır. Və mən ümid edirəm ki, bütün istiqraz müəssisələri bu tədbiri qarşılarlar. Zira böylə müəssisələrin həpsi fövqdə məz-

kur inqisamın [yuxarıda deyilən bölünmənin] qaldırılması ilə əlaqədardırlar.

Bütün ticarət əməliyyat və müamilatı [ticarət əməliyyatları və hərəkətləri] hal-hazırda nağd pul ilə icra edilir və bir pul saymaq nə qədər vaxtı zaye [hədər] edir. Tacirlər banknot (çek) istemal edilməməsindən [işlədilməməsindən] böyük müşkülat çəkir. Həman banknot üsulunu qaim etmək [tətbiq etmək, möhkəmləndirmək] Dövlət Bankasının yaxın fəaliyyətlərindən birincisi olmalıdır.

Məlumunuz olmamış deyil ki, Azərbaycan şəhərləri arasında və iqtisadi şəraitcə bizimlə sıxı irtibatları olan qonşu məmləkətlər miyanında [arasında] mərsulat (perevod - barat) [pulköçürmə] əməliyyatının münqəte olmasından [kəsilməsindən] tüccar əsnafı [ticarətlə məğşul olanlar] nə qədər zərərdidə olmuşdur. Banka məzkur [deyilən] əməliyyatın qaim edilməsinə iqdam etmişdir [başlamışdır].

Hal-hazırda bütün Azərbaycan şəhərləri arasında banka müamilatına [əməliyyatlarına] başlanıb, məbaliği-qeyri-məhdudə mürasilatı da [qeyri-məhdud məbləğlərdə pulköçürmələr də] qəbul edilir. Azərbaycan hüdudu xaricində olan şəhərlərdən mərsulat əməliyyatı Tiflis şəhəri ilə icra edilir və tez zamanda Batum şəhəri ilə də icraya başlanacaqdır. Və sonra mürur ilə [vaxt ötdükcə] başqa yerlərlə də əlaqəyə başlanacaqdır.

Söylənənlərin həpsini xülasə edərək, mən itminan ilə deyirəm ki, bizim ticarət və sənaət həyatımızı bərpa etmək və sonra onun tövsiyi-dairəsinə xidmət etmək üçün Dövlət Bankası lazımi hərəkəti verərək ən qəvi [güclü] bir müəssisə olacaqdır.

Onu da söyləməliyəm ki, hər sinif əhalinin müavinəti-lazimısi olmadan, arzu edilən fəaliyyəti-müstəqiməni yalnız hökumət tədabiri [tədbirləri] ilə bankadan bəkləmək olmaz. Binaənileyh [ona görə], buraya toplanmış möhtərəm əfəndilərə təvəccühən [üz tutaraq], mən əhaliyə müraciətlə rica edirəm ki, bankaya müavinəti-lazimədə bulunub onun cümlə tədabirini hüsn-əlaqə ilə qarşılamaqla, əziz vətənimiz üçün müstəqil bir maliyyə, iqtisadi yaşayış xəlq edilməsinə xidmət etmiş olasınız.

## GÜRCÜSTANDA MÜSƏLMANLAR

Tiflisdən yeni vürud etmiş [gəlmiş] Şurayi-Milli rəisi Nərimanov Əlimirzə bəy mühərririmizlə müsahibədə bulunaraq, Gürcüstanda müsəlmanların yaşayışı və əhvalı haqqında bəzi məlumat vermişdir. Mühərririmizin suallarına verdikləri cavablarında rəis cənabları əhvalı böylə təsvir etmişdir:

Ümumiyyətlə Gürcüstanda, xüsusən Tiflisdə ələlümum [bütün] müsəlmanların həyati-ictimaiyyəsində mütəəssi-fanə [təəssüf ki], bir növ buruqluq, pozuqluq, durğunluq müşahidə edilməkdədir. Böylə gedərsə, həyati-ictimaiyyə qayət fəna bir şəkil ala bilər. Təşəbbüs bilmərrə yoxdur. Yeni cəmiyyət və sair təşkilat təsis edildiyini görən, bilən yoxdur. Biləks [əksinə], mövcud olanları da əzalarının [üzvlərinin] qeydsizlik [laqeydlik], təşəbbüs və əzmsizliklərindən yox dərəcəsinə gəlmişlərdir.





Məsələn, Tiflis zükur və ünas [kişi və qadın] Cəmiyyəti-Xeyriyyələri, Dram Cəmiyyəti və sairənin ancaq adı qalmışdır. Şübhəsizdir ki, cəmiyyət əzası və camaat xadimi deyə tanınmış olan əşxasın [şəxslərin] böylə qeydsizliyi nəticəsində mədəni həyat dəxi hər hankı cəhətdən baxılsa, durdurulmuş olacaqdır. Odur ki, hər tərəfdə nöqsan, hər tərəfdə milli, mədəni, ruhani ehtiyac tam şiddəti ilə hökmfərmadır [hökm sürməkdədir].

O cümlədən, maarif işləri çox axsayır. Ümumiyyətlə, Gürcüstanda, əvvəla, ümumi məccani [pulsuz] icbari təlim məsələsi nəinki qanun gücünə mindirilməmiş, hətta layihə tərtibinə və hazırlığa belə şüru edilməmişdir [başlanmamışdır]. Və hələ bu uğurda bir şey görülməyir də. Xüsusi olaraq türk-islam çocuqlarının təlim və tərbiyəsi üçün heç bir tədbir görülməyir, heç bir təşəbbüs edilməyir. Nə milli idarələr əhəmiyyət verirlər, nə hökumət.

Gürcüstanda müsəlman məktəbləri müəllim və müəlliməyə çox möhtacdırlar. Milli [Şura] barı bir kurs açmaq barəsindəki təşəbbüslərinə belə hökumətdən müvafiqət [razılıq; kömək] görməmişdir. Nəhayət, ehtiyacın böyüklüyünü görərək öz xərci ilə də olsa, bir kurs açmağa qərar vermişdir. Gürcüstan hökuməti müsaidə [icazə] vermiş, fəqət maddi müavinət göstərməmişdir. Şimdi Milli Şura xərci ilə iki aylıq kurs açılmışdır. Bu kursu ikmal edənlər [bitirənlər] ümum Gürcüstan müsəlman məktəblərinə müəllim və müəllimə təyin edilə bilərlər.

Siyasi firqələrdən ancaq "Hümmət" firqəsi bir vaxt fəaliyyət göstərmək istəyirdi. Fəqət hümmətçilər də biri-biri ilə və həpsi hamı ilə öylə rəftar etdilər ki, nəhayət, rüsvay olub Tiflisdən qaçmaq məcburiyyətində qaldılar. Üzərlərinə bir çox töhmətlər dəxi düşür. Bir çox töhmətlərdən sonra hümmətçilər Tiflisdən dağılıb, qismən Borçalı qəzasına, qismən də sair yerlərə qaçdılar. Əzcümlə [o cümlədən] bir neçəsinin də Azərbaycana gəlmək xəbəri var. Borçalıya gedənlər orada bir ocaq salaraq bəzən də zemstvo idarələrinə daxil ola bilmişlərdir. Hökumət nəzərində bunlar kəndilərini camaatın pişrovu [qabaqda gedəni] kimi göstərmək istəyirsələr də, xalq arasında əsla nüfuz və etibara malik deyildirlər. Camaat onların dalınca getməyir.

Milli Şuranı düşündürən başlıca iki məsələ var: birisi dini işlər idarəsi məsələsi, digəri qaçqın məsələsi.

Məlum olduğu üzrə, Tiflisdən ruhani idarələr Azərbaycana köçürüldükdən sonra orada öylə bir şey qalmamışdı və hökumət tərəfindən məzkur [deyilən] idarələrə verilən kredit kəsilmişdi. Bunun nəticəsi olaraq maaş almayan idarə üzvləri və üləma [ruhani alimlər] dağılıb, məclislər yox olmuşlardı. Bu surətlə də ruhani işlər başsız qalmışdı.

Bunu gördükdə Milli Şura bir çarə arayaraq, Şura nəzdində üləmanın iştirakı ilə bir komissiya təşkil edilmiş, kreditin təzədən açılmasına müvəffəq olmuşlardır. Həman komissiya ruhani idarələr təsis və təşkili haqqında bir layihə hazırlayaraq hökumətə təqdim etmişdir. Layihə hökumət tərəfindən qəbul edilmiş və təsdiq üçün hal-hazırda Məclisi-Müəssisana verilmişdir. Məzkur layihəyə görə, ümum Gürcüstan islam ruhani idarə-

lərinin mərkəzi Tiflisdə olub, sədrül-üləmayi-müslimini-Gürcüstan [Gürcüstan müsəlmanlarının ruhani sədri] təsmiyə olunacaq bir zatın [adlanacaq bir şəxsin] təhtisədarətində [sədrliyi altında] biri əhli-təsənnün [sünnilərdən], digəri əhli-təşəyyödən [şiələrdən] ibarət iki rəisin iştirakı ilə bir məclis təşkil edəcəkdir. Qəzalarda isə məclis rəisləri yerli əhali mülahizə edilərək təyin və intixab ediləcəklərdir [seçiləcəklər].

Qaçqın məsələsinə gəlincə, burası qayət mühüm bir şəkil almışdır. Dağıstan, Ermənistan və Türkiyədən bir çox qaçqınlar mərkəz olmaq həsəbi [səbəbi] ilə Tiflisə gələrək, Milli Şuraya müraciətlə müavinət istəyirlər. Bunlara yardım edə bilmək üçün böyük məbləğlər lazımdır.

Bundan əlavə, müntəzəm və mütəşəkkil müavinət göstərib qaçqınları azçox təmin etmək üçün Milli Şura Tiflisdə bir "Qaçqınlar evi" və bir "Yetimlər yurdu" açmağa lüzum və ehtiyac görür. Fəqət bu da külli pullarla əmələ gəlir. Odur ki, bu xüsusda Şura ümdə köməyi Azərbaycandan gözləyir.

Milli Şura inanır ki, Azərbaycan camaatı və hökuməti möhtac qardaşlarına imdad əllərini uzadacaqlardır. Bu məqsəd və ümid ilədir ki, Şura rəisi Bakıya gələr-gəlməz Rəisi-vükəla [Baş nazir] və Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri həzrətlərinin hüzurlarına getmişdir. Nazir bəy əfəndilər ümidbəxş vədlər vermişlərdir. Fəqət Şura üzvləri bununla bərabər camaatdan da yardım umurlar.

Bir də, Gürcüstanda yalnız qaçqınlar deyil, Axısxa və Axalkələk qəzaları islamlarından bir çoxları dəxi yardıma möhtacdırlar. Onların ehtiyaclarını ödəmək üçün Milli Şura gürcü hökuməti nəzdində təşəbbüsatda bulunmuş və ümum Axısxa və Axalkələk möhtaclarına verilmək üçün dörd milyon manat pul buraxdırmağa müvəffəq olmuşdur. Fəqət bütün təşəbbüslərinə rəğmən, həman paranı təqsim edici [paylayıcı] komissiyaya müsəlmanlardan bir üzv keçirə bilməmişlərdir. Nəticədə, möhtaclar kəndilərinə kömək edilmədiyindən şikayət edirlər.

Müsahibə əsnasında bir məsələdən dəxi bəhs edilmişdir ki, onu da qeyd etmədən keçmək istəməyirik. Məqami-aidinin [aidiyyətli qurumun] nəzər-diqqətlərini bu xüsusa cəlb etmək istəriz.

Anlaşıldığı üzrə, Tilav, Siqnax və Tianeti qəzalarının Azərbaycan ilə həmsərhəd olan yerlərində azərbaycanlılardan bəzi nadinc adamlar sərhədi keçərək gürcü köylülərinin malını, heyvanını qovurlar. Gürcülər isə sərhədi keçmək istəməyərək Gürcüstan daxilindəki müsəlman kəndlərinə hücum edib onların mal-heyvanlarını aparırlar ki, onlar da müsəlman, siz də müsəlman, siz gedin bizim mallarımızı müsəlmanlardan alın, gətirin, biz də sizin malınızı verək. Böylə işlər bir dəfə, beş dəfə deyil, çox ittifaq [rast] düşür və bundan yerli müsəlman köylüləri çox zərər çəkirlər.

## BAKI XƏBƏRLƏRİ

### Parlaman komisyonlarında

- Suraxanı ilə Mərdəkan arasında postaların amədşüd etməsindən [gəliş-gidişindən] ötrü 3 milyon 300 min manat buraxılması haqqında Ümuri-Xeyriyyə və





Nafiə Nəzarətindən [Sosial Təminat Nazirliyindən] bir qanun layihəsi gələrək, Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

- Dəvair və məhakimi-ədliyyəyə [Ədliyyə dairələrinə və məhkəmələrinə] hükkam [hakimlər] və ədliyyə məmuru yetişdirilməsi haqqında Ədliyyə Nəzarətindən bir qanun layihəsi varid [daxil] olaraq, Maliyyə və Büdcə komisyonuna gön-dərilmişdir.

- Eyni Nəzarətdən: ölüm maddəsini təhqiq və təsdiq haqqında; 2) hüquq davalarında hakim tərəfindən göndərilən əxbariyyə vərəqələrinin [xəbərdarlıq vərəqələrinin] irsal [çatdırılması] və təbliği üsulunun təğyir və təbdili [dəyişdirilməsi]; hüquq davalarının üsuli-iqamə və təhrikindən [başlaması və gedişatından] bəzi fəsillərin təğyir və təbdili haqqında;

- Şuriş [iğtişaş] yapan və üsyan edənlərin məsuliyyətinə, ədalət və həqqaniyyətə müxalifətlə müqavimət göstərmək xüsusundakı qərarların bəzilərinin tədil və təğyiri [düzəldilməsi və dəyişdirilməsi] haqqında qanun layihəsi Parlaman müzakirəsinə göndərilmişdir.

Vərəsənin [varislərin] üsuli-dəvətində bəzi nüqatı [nöqtələri] tədil haqqında; hüquq davalarında şahidlərin üsuli-istemasında [dinlənməsində] bəzi nöqtələrin tədilinə dair; əqdnamələr ehkamına [müqavilələrin hökmlərinə] riayətin məcburiyyətinə dair üsulun bəzi nöqtələrinin tədili haqqında qanun layihələri varid olaraq Ləvayehi-qanuniyyə [Qanun layihələri] komissiyasına verilmişdir.

- Azərbaycan Cümhuriyyəti Xariciyyə Nəzarəti mərkəzi və əcnəbi hökumətlərdəki missiyalarının ştata və məsarif cədvəli haqqında Xariciyyə Nəzarətindən bir qanun layihəsi gəlib, Ləvayehi-qanuniyyə şöbəsinə verilmişdir.

- Azərbaycan Dəmiryolunun Xudat və Yalama mövqifindəki [stansiyasındakı] posta və teleqraf şöbələrinin məmuru siyahısı layihəsi Posta və Teleqraf Nəzarəti tərəfindən təqdim və Ləvayehi-qanuniyyə şöbəsinə irsal edilmişdir [göndərilmişdir].

Parlaman rəisinin ikinci müavininə, baş katibə və katiblərə nümayəndəlik verilməsi haqqında Parlaman idarəsi tərəfindən bir qanun layihəsi tərtib verilmişdir.

### "Yaşıl qələm"də

Cümə günü oktyabrın 10-da axşam saat 6-da Parlaman binasında ədəbi "Yaşıl qələm" dərnəyinin ümumi iclası çağırılır. İclasda Hüseyn Mirzəcamal əfəndinin Fransa və Rusiya böyük inqilabları, onları doğuran amillər haqqında məruzəsi dinlənəcək, bununla bərabər, vaxt müsaid olarsa, başqa ədəbi mövzularda müsahibə və müzakirə olunacaqdır. "Yaşıl qələm" dərnəyi üzvləri ilə bərabər ədəbiyyat maraqlıları gənclər də iclasa gələ bilərlər.

*Yaşıl qələm*

### Ərdahanda

Batumda müntəşir [nəşr olunan] "Sədayi-millət" qəzetəsinin son məlumatına məbni [əsasən], 1919-cu sənəsinin 13 ağustosdan etibarən Ərdahan okruqunda hökuməti-məhəlli [yerli hökumət] müsəlmanların əlinə keçmişdir.

### Bələdiyyə İdarəsində

- "Bierinq" Telefon Cəmiyyəti Bələ-

diyyə İdarəsinə məlum etmişdi ki, Bələdiyyə İdarəsinin cəmiyyətə olan borcundan bu ay üçün 50 min manat verməzsə, telefon xətti tətilə məcbur olacaqdır. Dün Şəhər İdarəsi ixtiyarında olan Bələdiyyə İdarəsi telefonları tətil elan etmişdir.

- Bələdiyyə İdarəsi bu yaxınlarda Bələdiyyə Məclisi Maliyyə şöbəsi vasitəsilə notarius müqavilənamələrinin şəhər üçün alınan vergilərinin artırılması haqqında hökumət nəzdində təşəbbüsatda bulunmağa dair bir layihə təqdim edəcəkdir. Əlavə, bu vaxtadək bəzi müqavilənamələrdən vergi alınmayırdı. Şimdi böylə müqavilənamələrdən də vergi almaq məsələsi müzakirə ediləcəkdir.

- Bələdiyyə İdarəsi Ticarət, Sənaye və Ərzaq Nəzarətinə müraciətən, xidmətçilər üçün əlbisə [libas] hazırlamaq qəsdi ilə Tağıyev fabrikasından 935 arşın bez verilməsi haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

- Bələdiyyə İdarəsi Bakı polismeysterinə müraciətən məlum etmişdir ki, bir çox ev sahibləri qubernator qərardadının 7-ci maddəsinə müğayir [zidd] olaraq bu vaxtadək dvornik [dalandar] saxlamayırlar. Şəhər araba işlərinin işləməsi üçün bu haqda tədabir ittixazını rica etmişdir.

**Bakı radio mövqifi**

İngilis Komandanlığı tərəfindən Azərbaycan dövlətinə verilmiş Bakı radio mövqifi [radiostansiyası] hal-hazırda bütün dünya ilə olan əlaqə üçün yeganə bir vasitə olduğundan dolayı, əhvalı haqqında bir qaç məlumat vermək icab edir [lazım gəlir].

Bakı mövqifi teleqraf verəcəyi kimi, ala da bilir. Qüvvəti iki mürəbbe [kvadrat] olduğu üçün Zaqafqaziyanın hər yerinə teleqraf göndərə bilər. Mövqif Tiflis, Təzəşəhər və Petrovskla bilavasitə mərbutdur [əlaqəlidir]. Bakı mövqifi bundan əlavə işbu mövqiflərdə işləyir: Ənzəli, Fort-Aleksandrovsk, Hacı-Tərxan, İrəvan. Fəqət bunlar cavab verəmməyirlər. Böyləliklə, Qafqaziyadan başqa, mövqifin digər yerlərlə əlaqəsi yoxdur.

Qəbul nisfi-qüturu [radiusu] isə pək böyükdür. Hal-hazırda mövqif Nauen-Almaniya, Lion-Fransa, Roma-İtaliya, Karnarvon-İngiltərə və Xorsadan aldığı kimi Petroqrad, Tsarskoye selo, Moskva, Paris, Bəsrə, İstanbul, İrəvan, Daşkənd, Sevastopol, Nikolayev, Odessa və bütün Avropa və Türküstan, Beynənnəhreyn və Asiyayi-Süğradan [Anadoludan] da teleqramlar alır.

Mövqif iki qəbul və iki də təqviyə [gücləndirmə] (üçüncüsü qayırılır) və bir generator ilə təchiz edilmişdir. Əlbəttə ki, mövqifin teleqraf vermək qüvvətini artırmalıdır ki, Tiflis və Petrovsksuz Avropa ilə irtibat [rabitə] peyda edilə bilsin. Bundan ötrü də qüvvəti 20-25 mürəbbeyə qədər artırmalıdır. Hökumətin tədabir ittixaz edəcəyinə itminanımız [tədbirlər görəcəyinə etimadımız] tamdır.

**Şəhər bağında qətl**

Çaharşənbə günü təşrini-əvvəlin [oktyabrın] 8-də Bakı şəhər bağında axşam saat 8 yarımda naməlum bir nəfər, məşhur Bakı neft mədənçisi, balaxanılı Məşhədi Qasımov bağda əyləşərkən tapança ilə alnından vurub qətl etmişdir. Qətlin səbəbi məlum deyildir. Qatil tapılmamışdır. Polis təqib etməkdədir.





## BİRJADA

Bu axır vaxtlarda Nikolay parası tərəqqi və Kerenski tənəzzül etməkdədir. Kerenski minlik 1.065 manat, 250-lik isə faizsizdir. Kerenski xırda kəndi qiymətindən 20 faiz aşağı düşmüşdür. Nikolay 500-lüyü 1.300 manat, 100-lüyü 280 manat və xırda 80 faizdir. Gümüş manat 58 və xırda pul 22 manatdır. Osmanlı altun lirəsi 650 manat və kağız lirəsi 170 manatdır. Tiflis parası 1 faiz olmuşdur.

## "MÜSAVAT"DA

**Yeni Müsavat komitəsi**

- Oktyabrın 3-də vaqe olan firqə nümayəndələri iclasında "Müsavat" firqəsinin Bakı komitəsinə 19 nəfərdən ibarət yeni üzvlər seçilmişdir.

- Oktyabr 8-də vaqe olan komitə iclasında komitənin divani-rəyasətinə zeyldəki [aşağıdakı] əfəndilər seçilmişdir:

*Sədr – Məhəmməd Əli Rəsulzadə*
*Müavin – Abbasqulu [Kazımzadə]*
*Katib – Seyid Zərgər*
*Xəzinədar – Novruz Ağayev*

Bunlardan başqa divani-rəyasətə, təşkil olunacaq komisyonların rəisləri də daxil olacaqdırlar. Komisyonların ədəd və nizamnaməsini tərtib etmək üçün divani-rəyasətə zeyldəki əfəndilər köməkçi seçilmişlər:

*Seyid Hüseyn Sadiq;*
*Mirzəbala Məhəmmədzadə;*
*Piri Mürsəlzadə.*

## CƏMİYYƏTİ-XEYRİYYƏDƏ

**Qaçqınlar**

17 nəfər İrəvan qaçqınlarının hər birinə Cəmiyyəti-Xeyriyyə tərəfindən 50 manat xərclik verilib Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərilmişdir ki, onları Ağstafaya göndərsinlər.

**Üç nəfər yetim**

Mirzəağa, Hacıağa və Yusif adlı üç nəfər atasız yetimləri qoca nənələri gətirib Cəmiyyəti-Xeyriyyəyə vermişdir. Çocuqlar darüleytama [yetimxanaya] göndərilmişdir.

## AZƏRBAYCANDA

**Qubadan**

*(Xüsusi müxbirimizdən)*

İrəli zamanlar istibdad günləri bir tərəfdən çar hökuməti siyasəti, digər tərəfdən bir taqım qara fikirli ruhanilərin maarif yolunda əngəllər törətməsi xalqımızı sıxıntı altına almış, şəhrahi-ürfanı [elm və mədəniyyət yolunu] üzlərinə qapamışdı.

Ziyalılarımız cəmiyyətlər güşadı [açılması] ilə, mühərrirlərimiz səhifələr dolusu yazdıqları məqalələrlə zülmət əhrimənlərinə şiddətli müharibələr elan edərək, məsum xalqımızı zəlami-cəhldən [cəhalət qaranlığından] təxlisə [xilas etməyə] çalışır, onları sahili-nura çıxarmaq üçün mövcud qüvvələrlə mübarizədə bulunurlardı.

Həmdlər olsun, artıq qaranlıq əhrimənlərinin inadı sınmış, işıq məbudələri,

nur hörmüzləri qalib gəlmiş və qələbələrini təntənəli cəşnlərlə [şadlıqlarla] aləmə göstərib bildirmişlərdir.

Əvət, artıq əngəllər bərtərəf edilmiş [aradan qaldırılmış] və zülmət kabusları ortadan qaldırılmış və eyni zamanda xalq dəxi gözlərini açaraq, oyanıqlıq hərəkəti göstərməyə başlamışdır.

Əvvəlcə elm və mədəniyyətin birər düşməni kəsilmiş mütəəssiblər [təəssübkeşlər] də zamanın əhəmiyyətini anlayaraq maarifə rəğbət göstərmədə, balalarının əlindən tutaraq məktəbə tərəf şitaban olmadadırlar [yürüməkdədirlər]. İnqilab saiqəsi [təsiri] ilə xalqın ruhunda hüsula gəlmiş bu inqilab vilayətlərdə daha açıqcasına, daha aydıncasına gözlərə çarpmadadır.

Fəqət, məəttəəssüf [təəssüf] söyləyəcəyəm ki, xalq şimdi nura doğru yüyürür, maarifə tərəf can atırsa, onu qarşılamağa, onu ümmani-ürfandan sirab etməyə [doyurmağa] hazırlıqlarımız olmamışdır. Gərək təlim kitabları fiqdanından [yoxluğundan], gərəksə ehtiyacımızı ödəyəcək qədər müəllimlərimiz olmadığından dolayı zühura çıxmış amillər ərbabi-ürfanımızı bir taqım müvəqqəti mümaniətlərlə [maneələrlə] qarşı-qarşıya qoyduğu kimi, xalqımızın şikayətini mövcib [şikayətinə səbəb] olmuşdur.

– Bizi tövbix və təkdir edirdiniz [danlayır və məzəmmət edirdiniz], şimdi bəs məktəbləriniz nərədədir? Neyçün bu soqaqları səfil-səfil dolanan çocuqların çarəsini düşünmək istəməyirsiniz? Yoxsa sizin bağırtılarınız boş davul sədası idi? – deyə xalqın haqlı sərzənişlərini [tənələrini] vilayətlərdə yaşayan maarif əhlləri hər gün eşitmədədirlər.

Məsqəti-rə'sim [doğum yerim] olan Quba şəhəri dövri-istibdadda dəxi maarifcə ən geridə qalaraq əbus [xoşagəlməz] günlər keçirdiyi kimi, şimdi də şanlı istiqlal elanından sonra da üzü gülmə[mək]dədir. İstibdadın son nəfəsləri zamanında açılmış dördsinifli bir ali-ibtidai məktəb var idi ki, onun da şimdi qapıları qapalı qalmışdır.

Tədris zamanı yetişmişsə də, nə məktəbdən bir əsər və nə də müəllimdən bir xəbər vardır. Bu əhval bir çox valideynləri, xüsusən başqa şəhərlərdə övladlarını təlimə müqtədir olammayan füqəra qismini pək müztərib edir [iztiraba salır].

Onlar bu xüsusda Maarif Nəzarəti indində [nəzdində] istidada [xahişdə] bulunmaq istəyirlər və onlar şu xüsusda bir qaç sətir qaralamağı acizlərindən də rica etmişlərdir. Yəqin ki, Maarif Nəzarəti-cəliləsinin [uca Maarif Nazirliyinin] ixtari-acizanəmə [acizanə etdiyim xəbərdarlığa] ehtiyacı olmayaraq, tez zamanda təşəbbüsatda bulunacaqlardır.

Fəqət ərz edəcəyim bir fəqərə [fakt] vardır ki, o da maarif təşnəsi olan 200 minlik Quba qəzası əhalisinə bir ali-ibtidai məktəbin kifayət etməməsini göstərmək və orada bir edadi açılmasına daha sərfi-məsai buyurmadan müzayiqə edilməməsini [çalışmaqdan səylərinin əsirgənməməsini] rica etməkdir.

*Türkoğlu*

## ELANLAR

**Diş həkimi B. M. Şternin**

Voronsovski küçə, nömrə 22, Karantinninin küncündə. Telefon nömrəsi 48-15.





Dişlərə müalicə olunub doldurulur, kauçuk və qızıl üzərində süni dişlər qayırılır, dişlər ağrısız çəkilir. Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Qiymətlər münasibdir.

*9060*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**İtibdir**

Məşhədi Hüseyn Məşhədi Kərim oğlu Səmədzadənin 20 avqustda qəzavətxanadan [Qazilik idarəsindən] aldığı 590 nömrəli şəhadətnaməsi itib, etibardan saqitdir [etibarsızdır].

*11436*

**Müəllim T. Pilyam**

Neçə illər təcrübə görmüş, yenidən başlayıb dərs verməyi edadi məktəblərin proqramı üzrə. Ünvan: Balaxanski küçə nömrə 34. Telefon 38. Saat 3-dən sonra.

*11438*

**Təbib Əmir bəy Aslanov**

Qəbul edir naxoşları (daxiliyyə və cildiyyə) axşam saat 4-dən 6-yadək. Adres Afiserski küçədə (Nikolayevski küçənin tinində) nömrə 6. Telefon 4-14.

*11430*

**Xiromant**

Kitablar müəllifi: "Gizlini bilmək" və "Xiromantiya təcrübəsinin əsasları" A. K. Xodunov ancaq əllərin xəttləri ilə insanın xasiyyətini, keçmişini, hal-hazırını və gələcəyini söyləyir. Qəbul edir hər gün saat 10-dan 4-ədək. Katibdən xəbər almaq və yazılmaq olar. Ünvan: Mariinski küçə nömrə 18, Gimnaziçeskinin küncündə.

*9093*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

### Teleqraf xəbərləri

səh. 140. “Şaulen”: Litvanın şimalında, indiki Şauley [Šiauliai] şəhəri.

### Türkiyədə

səh. 144. “müstəşar”: Osmanlı dövlətində və Türkiyədə nazirliklərdə və ya digər dövlət qurumlarında yüksək rütbəli məmur; məsləhətçi.

### Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat

səh. 147. “Zatən ... fədakarlıqla, bir-birimizin ehtiramını gözləməklə”: arada bir söz silinmişdir.

“atəşkədələrə babalarımız səcdə edərdilər, ... həman mə’bəd”: arada bir-iki söz silinmişdir.

### Gürcüstanda müsəlmanlar

səh. 152. “sədrül-üləmayi-müslimini-Gürcüstan”: qəzetdə “üləmayi” yerinə “üləması” getmişdir.

### Bakı xəbərləri

səh. 153. “əxbariyyə vərəqələrinin”: “vərəqələrinin” yerinə qəzetdə “vərəsələrinin” getmişdir.

səh. 154. “Tazəşəhər”: Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

“Petrovsk”: Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

“Fort-Aleksandrovsk”: İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.





**Bazar, 12 oktyabr 1919-cu il, nömrə 293**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 17 məhərrəmül-haram sənə 1338. 12 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

### SİRK “MODERN”

Yekşənbə günü oktyabrın 12-ndə 1919-cu ildə təzə gələn artist və artistkaların qastrolu olacaqdır. Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Naməlumun tələbinə görə Qara Maska – Naməlum.

2-nci: Zakoroyko – Ciovani.

3-ncü: Rozenbaum – Yemelyanov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*11443*

### SƏMİMİYYƏT LAZIM!

Daşnak firqəsinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan “Araç” qəzetəsi Azərbaycan ünvanına təəllüq etmək [aid olmaq] üzrə bir məqalə yazmışdır ki, bir tərəfdən təhdidamiz və digər tərəfdən etilafcuyanə [razılığa gəlmək istəyən] bir lisanla Ermənistan və Azərbaycan münasibatına [əlaqələrinə] təsir etmək istəyir.

Bu məqaləni “Araç”a yazdıran fəqərə [fakt] bir taqım şayiələr imiş ki, guya Azərbaycan hökuməti Zəngəzur tərəfə qoşun taqımları yığıb, bura erməniləri üzərinə müharibə açmaq fikrində imiş.

Qəzetə deyir ki:

*“Bu xəbərlər doğru olduğu təqdirdə erməni-müsəlman millətlərinin yeni bir imtahan qarşısında qalacaqları naçardır [məcburidir]. Azərbaycanın Zəngəzur haqqındakı dəstdirazlığı [əliuzunluğu] iki dövlətin biri-biri ilə müsadimə [toqquşma] və çarpışmasını müntic olacaqdır [əmələ gətirəcəkdir]. Zira Ermənistan Zəngəzuru heç bir halda müdafiəsiz və tənha qoymaz və əlində mövcud olan bütün qüvvəti ilə Azərbaycan iqdamatına [addımlarına] qarşı müqabilədə bulunar [müqavimət göstərər].”*

Böylə bir “xox gəldi” təhdidatdan sonra qəzetə, mötadı [adəti] üzrə, dilini dəyişib Ermənistan hökumətinin “məzayayi-sülh-cuyanə”sindən [sülhpərvər xüsusiyyətlərindən] bəhslə deyir ki:

*“Erməni Cümhuriyyəti bütün ixtilaflı hüdud məsələlərini beduni-cəbr, müvafi-*